DOI: https://www.doi.org/10.36719/2663-4619/64/83-86

Sabina Əzim qızı Əzimova
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
sabina_azimova25@mail.ru

ERKƏN NİKAHLARIN PSİXOSOSİAL NƏTİCƏLƏRİ

Açar sözlər: *Ailə yaşı, uşaq istismarı, psixososial aspektlər*

Psychosocial consequences of early marriages

Summary

One of the most common forms of child exploitation in the world is early marriage. Although the number of underage marriages has declined to some extent, it continues to rise in a number of countries. Early marriage usually means the marriage of a child under the age of 18. Many of these marriages are also referred to as "child and forced marriages" because they are performed without conscious consent. Early marriage separates children from their families and peers, exposes them to domestic violence, and jeopardizes their development, educational, social and professional opportunities. Such marriages can also lead to psychological problems such as depression, adaptation disorders, post-traumatic stress, and suicide attempts. This review article aims to assess the causes and psychosocial consequences of early marriage.

Key words: *Family age, child exploitation, psychosocial aspects*

Giriş

Erkən nikahlar, digər adıyla uşaq evlilikləri - 18 yaşın altında, uşağın fiziki və psixoloji olaraq evlilik və uşaq sahibi olmaq kimi məsuliyyətləri daşımağa hazır olmadan həyata keçirilən evlilik olaraq təyin olunur. Evliliyin müəyyən bir səviyyədə fiziki, mənəvi, zehni, psixoloji yetkinlik tələb etməsi səbəbinə görə uşaq yaşdakı evliliklərin "gəlin" olaraq görülməməsi lazım olduğu mübahisə edilməkdədir. Lakin gündəlik həyatda erkən nikahlar əvəzinə uşaq nikahları, uşaq gəlinləri ifadəsinin işlədilməsi mövzuya daha çox diqqət çəkdirir. Rəsmi olaraq problemi təyin etmək üçün uşaq nikahı konsepsiyasından istifadə edilməli olduğu bildirilir. BMT ekən nikahları kişilərin xəyrinə qadın və uşaqların istismar edildiyi, ortadan qaldırılması lazım olan bir tətbiq olaraq təsnif etmişdir. Ailənin iqtisadi səviyyəsi və təhsil vəziyyəti, məişət zorakılığı mühiti, fərdin təhsil səviyyəsi, ailədəki gərginlik, ailənin və fərdin sahib olduğu stereotiplər, genderə baxış və ənənəvi tətbiqlər qız uşaqlarının erkən evləndirilməsinə mühit hazırlayır. Erkən nikahların həqiqi tezliyini müəyyənləşdirmək qeyri - rəsmi nikahların qeydiyyata alınmaması, 18 yaşınadək qeydiyyatsız uşaq nikahları və evlilik statistikasını təyin etmək üçün istifadə olunan məlumat toplama metodları səbəbindən mümkün deyil. Bu səbəbdən mövzu ilə bağlı etibarlı məlumat əldə etmək üçün müxtəlif mənbələrə müraciət etmək lazım gəlir.

Psixologiya ədəbiyyatına nəzər yetirdikdə erkən nikah mövzusuna çox diqqət çəkmədiyi görülür. Erkən nikahlar fərdin psixoloji və fiziki inkişafına təsir göstərən, təhsilini axsadan, peşə və sosial funksionallığını pozan mühüm travmatik amildir. Qadın, uşaqlar və cəmiyyət cəhətdən sağlamlıq və sosial nəticələri ağır olan bu problemlə mübarizə edə bilmək üçün problemin hazırlayıcı faktorları, yəni səbəb və nəticələrini əhatəli bir şəkildə araşdırılmasına ehtiyac yaranır.

Erkən nikahın səbəbləri

Təhsilsizlik və ailənin sosial - iqtisadi səviyyəsi

Erkən nikahların mövcud olmasını şərtləndirən amillərdən biri ailələrin təhsil səviyyəsinin aşağı olmasıdır. Erkən nikahlara daha çox təhsil səviyyəsi aşağı və sosial - mədəni quruluşu zəif ailələrdə rast gəlindiyi müşahidə edilmişdir. Bu cür ailələrdə oğlan və qızlar üçün fərqli evlilik planları qurulur. Oğlanların evləndirilmələri minimum səviyyədə təhsil almalarına və əsgərlik xidmətinin bitirməsinə bağlıykən qız uşaqlarında isə təhsilə ehtiyac duyulmur, həmçinin ailənin məhdud olan gəliri oğlanın təhsilinə xərclənir. Bu səbəbdən də qızlar yetkinlik yaşına başladıqdan dərhal sonra nişanlanır və sonra ailə qurulur (5).

Beynəlxalq müqayisələrə əsaslanan araşdırmalar, erkən evliliyin kənd yerlərində və az inkişaf etmiş bölgələrdə üstünlük təşkil etdiyini göstərir və ölkələrin rifah səviyyəsi arasındakı əlaqəyə diqqət çəkir. Yoxsul ailələrin öhdəsindən gələ bilmədikləri xərclərini, qız uşaqlarını erkən yaşda evləndirərək azaltma və eyni zamanda başlıq pulu ilə ailə gəlirini artırma yolunu seçdikləri də görülür. Erkən nikahlar ailənin iqtisadi qurtuluşu olaraq həyata keçirilir. İqtisadi səviyyə yüksəldikcə erkən evliliklərin nisbəti düşdüyü müəyyən olunmuşdur. Erkən yaşda uşaqlarını evləndirən ailələrinin iqtisadi səviyyəsi aşağı olur, kiçik yaşda evləndirilən qız uşaqları böyük nisbətdə

təhsil almır, xüsusilə bu qızların valideynlərinin çoxu heç təhsil almamış olur. Valideynlərin və ya uşağa görə qərar verən digər şəxslərin təhsili isə erkən nikah riskinə təsir edir.

Təməl bir insan haqqı olan təhsil, fərdlərin digər insan haqlarından faydalanmalarının və hüquqlarını müdafiə edə bilmələrinin əsas şərtdir. Qızların təhsili erkən nikahların qarşısının alınmasında vacib mövzulardan biridir. Məktəbdə oxuduğu müddətdə, 18 yaşına qədər evliliyə icazə verməyən məcburi və fasiləsiz təhsil erkən nikah probleminin kökündən həllinə böyük töhfə verən əsas amildir. Qızların təhsil səviyyəsi yüksək olduğu qədər evlənmə müddəti də bir o qədər gec olur və əksinə qızların təhsil səviyyəsi nə qədər aşağıdırsa, evlənmə müddəti də bir o qədər tez olur. Bu, bir qanunauyğunluq olmasa da, statistika bu halın dünyada geniş yayıldığını göstərir (1, s.108).

Təhsilin keyfiyyət və gender bərabərliyi perspektivi ilə layihələndirilməsi və həyata keçirilməsi erkən nikahlar kimi sosial problemlərin aradan qaldırılmasında mühüm rol oynayır.

Məişət zorakılığı

Erkən nikahların səbəblərindən biri də məişət zorakılığıdır. Böhran vəziyyətləri insanların mənfi nəticələri ola biləcək müdafiə mexanizmləri mənimsəmələrinə səbəb ola bilər. Ailə daxili şiddət, uşaq qayğısının yoxluğu, kiçik yaşlarda ana/atadan birinin itirilməsi və ögey ana/ataya sahib olunması digər bir ifadəylə ailə daxilində uşağın ehtiyacı olduğu rahat mühitin olmaması əksər hallarda uşaqlarda evlənmə nəticəsində bu vəziyyətdən xilas olacağı inancını inkişaf etdirərək erkən yaşda evliliklərə gətirib çıxara bilən səbəblərdəndir (7).

Ənənəvi fərziyyələr (stereotiplər), dini inanclar və gender bərabərsizliyi. Şimali Efiopiyada erkən nikahın səbəblərini sosial – mədəni məzmunda açıqlayan Dagne, qız uşaqlarını erkən nikaha istiqamətləndirən səbəblərini valideynlərin yaşlanmadan və ölmədən əvvəl qızların gələcəyinin zəmanətə alınması, qohumluq bağlarının gücləndirilməsi, ailənin statusunun yüksəldilməsi, yetkinlik yaşında evlənməməsi vəziyyətində qarşılaşa biləcəyi etiketlənmələrinin qarşısının alınması şəklindəki ənənəvi qəbullarla açıqlamışdır (6). Ənənəvi cəmiyyətlərdə qızların dominant sistemin tələbi olaraq erkən yaşda ərə verildiyi bildirilmişdir. Bu sistem qadınlara qarşı qeyri - bərabər münasibəti qanuniləşdirən və davam etdirən inancları və normaları olan qızların erkən nikahını dəstəkləyir. Belə sistemdə qadınlara öyrədilən gender rolları erkən nikaha nəzarət edən mexanizmlərdən biridir. Erkən nikahın keçmişdən günümüzə qədər uzanan və qadın üzərindən mədəni olaraq formalaşdırılan bir problem olduğu bildirilir. Erkən nikah bir çox cəmiyyətdə mədəni olaraq ərsəyə gətirilir və qorunur (3).

Qadına qarşı təməl insan hüquqları və azadlıqlarının pozulması, qadın və kişilər arasında qeyri - bərabər güc münasibətlərinə səbəb olan gender bərabərsizliyi, erkən nikahların davam etdirməsinə səbəb olur. Erkən evliliklərə əksəriyyətlə qız uşaqlarının məruz qalmasının kökündə qadına istiqamətli baxış bucağının payı var. Ənənəvi cəmiyyətlərdə qızlar dünyaya gələndən ev daxili rollara uyğun olaraq düşünülür və neçə yaşında olursa olsun evinin, ailənin məsuliyyətini yerinə yətirə biləcəyinə istiqamətli yayılmış bir inanc mövcuddur (2, s.20).

Ətrafında öz yaşıdlarının evlənməsi, ailəsində erkən yaşda evlənənlərin çoxluğu, uşaqları mənfi nümunələrin təsirində qalaraq evliliyə təşviq edir. Cəmiyyətin bəzi seqmentlərində hələ davam etdirilməkdə olan başlıq pulu, beşik kertmesi və qan əvəzi evliliyi kimi ənənəvi tətbiqlər qız uşaqlarının erkən yaşda evləndirilməsinə səbəb olur (4). Ortaq dəyər mühakimələrini bölüşən və oxşar mədəni dəyərlərə sahib olan dini qruplarında da daxili evlilik normalarının yayılması erkən nikahı təşviq edən amillərdəndir.

Başda qızlar olmaq üzrə uşaqlara edilən "tez evlənənlə tez yuxudan duran qazanar", "bəxtin bağlanar", "qız yükü duz yükü", "bir an əvvəl evlən və uşaq dünyaya gətir" və bənzəri cəmiyyət təzyiqləri də erkən yaşda evliliklərin önünü açır. Bu dəyər mühakimələri altında böyüyən qız uşaqları, sosial rolun ev qadınlığı və analıq olduğu şüuruna uşaqlıqdan etibarən məruz qalır. Qızların erkən ərə getmələri ilə bağlı belə açıqlamalar cəmiyyətin də evliliyə münasibətini ortaya qoyur.

Digər səbəblər

Erkən nikahların ən çox yayıldığı bölgələrdə səbəblərdən biri də müharibələr və təbii fəlakətlərdir. Əfqanıstanda yaşanan müharibə və quraqlıq, İndoneziyada yaşanan sunami kimi təbii fəlakətlərdə erkən evliliklərin ortaya çıxmasında təsirli hadisələr olaraq qarşımıza çıxır. Belə ki, İndoneziyadakı sunami sonrası həyat yoldaşları ölən və daha sonra kiçik yaşdakı qız uşaqlarıyla evlənən kişilər üçün "sunami dulu" kimi anlayışlar da yaranmışdır. Bəzilərində təbii fəlakətdən sonrakı evliliklər iqtisadi cəhətdən gəlir gətirəcək bir hərəkət olaraq görülür, digərlərində fəlakətdən sonra kimsəsiz qalan insanları, xüsusilə qız uşaqlarını qorumaq üçün həyata keçirilir (2, s.22).

Erkən nikahın psixososial nəticələri

Erkən yaşda həyata keçirilən evliliklərin bir çox baxımdan problem yaratmasının ən fundamental səbəbi evliliyin yeniyətməlik dövrünə bərabər gəlməsi olaraq ifadə etmək olar. 18 yaşının altında inkişaf mərhələsində olan şəxslər, sosial mənada yetkinləşməmiş, lazımlı sosial rollara tam mənasıyla uyğunlaşma

təmin edə bilməmiş fərdlər olaraq qəbul edilir. Bu səbəbdən sosial inkişaflarını tamamlamamış olan kiçik yaşdakı qız uşaqlarının evləndirilməsi, uşaqlarda daha tam meydana gəlməmiş olan sosial şəxsiyyətlərində problem yaşamalarına səbəb olur. Evlilik sonrası həmyaşıdlarının mühitlərindən qopma, sosial fəaliyyətlərdə özünə inam əksikliyi kimi əks olunmalarla tamamilə sosial ətrafından qopmaqla ailəsinə və ev içinə həpsolmuşluqla baş - başa qalır (2, s.23).

Erkən nikahlar, əksər hallarda qızların bir növ kölə kimi istifadə olunmaları ilə nəticələnir. Evlilik fərdin seçəcəyi bir vəziyyət olsa da, erkən nikahlar fərdin seçim hüququnu əlindən alır. Uşaqlıq nikahları insan hüquqları pozuntusunun bir növüdür və xüsusilə qızlar arasında ən çox yayılmış istismardır. Biopsixososial inkişafını tamamlamadan əvvəl qızların evlənməsi bir çox problem gətirir. Erkən nikahlar bir növ uşaqların uşaqlığını əllərindən alır və ciddi fiziki və psixoloji zərər verir (2, s.23). Bu uşaqlara erkən yaşda ailə, ev və uşaq baxımı kimi məsuliyyətlər verilir və təhsil həyatından məhrum olurlar. Erkən ərə gedən uşaqların çoxu məktəbi tərk edir. Erkən nikah qurbanlarının daha çox qız olduğunu nəzərə alsaq, bu vəziyyət qızların həyat yoldaşlarından daha çox iqtisadi baxımdan asıllı olmasına və yoxsulluğa səbəb ola bilər. Yoxsulluğu və təhsili erkən yaşda evliliklərin həm səbəbi həm də nəticəsi kimi qiymətləndirmək olar. Bundan əlavə, təhsil ilə yoxsulluq arasında güclü bir əlaqə mövcuddur. Yoxsulluq səbəbiylə təhsil imkanlarından kifayət qədər faydalana bilməyən və ya evləndirilmək üçün məktəbdən çıxardılan qız uşaqları, özünü inkişaf etdirə bilmir, yəni məşğulluq bacarıqlarını inkişaf etdirə bilmir, bu səbəbdən yoxsul qalmağa davam edir. Erkən yaşda evlənən qız uşaqlarının yoxsulluq "təcrübəsi", yoxsulluğun qadınlaşmasının bir formasını meydana gətirir. Uşaq sahibi olmaq isə yoxsul ailələrin sahib olduğu məhdud mənbələrinin daha da azalmasına gətirib çıxarır və onları daha çox yoxsullaşdırır. Erkən yaşda evlənən qız uşaqlarının, daha yetkin yaşlarda evlənən qız uşaqlarına görə daha çox uşaq sahibi olduğunu da nəzərə alsaq, uşaqların sayının çox olduğu ailələrdə yoxsulluğun daha çox yaşandığını demək mümkündür.

Evli uşaqlar istismara, hər cür şiddətə qarşı həssas olurlar (2, s.23). Beynəlxalq Qadın Tədqiqat Mərkəzi tərəfindən aparılan araşdırmaya görə, uşaqlıqda evlənən qızlar zorakılığa digər yaş qrupundakı qadınlara nisbətən 2-3 dəfə çox məruz qalırlar (4).

Bangldaleşdə aparılan bir araşdırmada, həyat yoldaşları tərəfindən zorakılığa məruz qalan qadınların 78.9%-nin uşaq yaşında (18 yaşından əvvəl) evləndiyi müəyyən edilmişdir. Cənubi Asiyada aparılan araşdırmalarda erkən nikahların partnyoru tərəfindən şiddət üçün risk faktoru olduğu təsbit edilmişdir (9). Uşaq yaşda həyata keçirilən evliliklərdə müşahidə edilən qadının təhsilindəki və iqtisadi imkanlarındakı məhdudluğun, həyat yoldaşları arasındakı yaş fərqi və güc balanssızlığının, sosial izolyasiyanın və qadının avtonomluğunun olmamasının bu evliliklərdə görülən məişət zorakılığının ola biləcək səbəb mexanizmləri olduğu bildirilir. Qızlar, qadınlara dəyər verilmədiyi ailələrdə evlilik adı altında bir növ satılırlar. Bu ailələrdə böyüyən qız uşaqları daxililəşdirdikləri zərərli inanclara da sahib ola bilər. Misal üçün ərləri tərəfindən döyülən qadınlar ərlərinə haqq qazandıra bilər. Erkən nikahlar ümumiyyətlə ailələr tərəfindən təşkil olunur və qızların qərar vermək haqqı olmur. Efiopiyada aparılan bir araşdırmada, 15 yaşından əvvəl evlənən qızların 71%-nin evlənmədən əvvəl həyat yoldaşlarını heç görmədiyi məlum olmuşdur. Ədəbiyyatda ər- arvadın evlənmədən əvvəl bir-birini tanımaması daha çox məişət münaqişəsinə və şiddətə vasitəçilik etdiyi bildirilir (9).

Erkən nikahlar daha çox ailə problemi və boşanmalara səbəb ola bilər. Ədəbiyyatda uşaq yaşında evlənənlərdə cütlüklərin uyğunlaşmanın pozulduğu və evlilik yaşı artdıqca uyğunlaşmanın artdığı aşkar edilmişdir (8).

Erkən yaşda evlənən qadınlar arasında hansısa psixoloji xəstəlik diaqnozu qoyulması və psixiatriya dəstəyi axtarma nisbətinin, yetkin yaşda evlənən qadınlardan daha yüksək olduğu bildirilir (10). Ən çox görülən diaqnozlar depressiya və uyğunlaşma pozuntusudur. Travma sonrası stress pozuntusu da digər diaqnostik qrupdur. Erkən yaşda ailə, ev və uşaqlar kimi məsuliyyət altında olmaq, valideynlərindən və yaşıdlarından ayrılmaq, evləndikləri şəxs və ailə ilə gərginlik, aşağı sosial dəstək və iqtisadi çətinliklər qeyd olunan xəstəliklərin sürətli inkişafına səbəb olan amillərdir. Evliliyi istəməyən, evləndirildiyi insanı evlilik əvvəli tanımayan, evləndirildiyi şəxs tərəfindən zorakılığa məruz qalan hallarda daha yüksək nisbətdə psixoloji pozuntu müşahidə olunur. Ayrıca Türkiyədə aparılan bir araşdırmada, bu hadisələrin 29.2%-də evləndikdən sonra intihar düşüncəsi inkişaf etdiyi və bunların 20.8%-də intihara cəhd göstərildiyi bildirilir. Depressiya simptomların 18 yaşdan yuxarı olanlara nisbətən evli uşaqlarda daha çox olduğu və intihar düşüncələrinin evli uşaqlarda 10-17 yaş arasındakı evlənməmiş uşaqlara nisbətən daha çox olduğu bildirilmişdir (4).

Nəticə

Ailənin iqtisadi səviyyəsinin və təhsil vəziyyətinin, ailə daxili şiddət mühitinin, fərdin təhsil vəziyyətinin, ailə daxilindəki narahatlığın, ailənin və fərdin sahib olduğu stereotiplərin, gender dünyagörüşünün və ənənəvi tətbiqlərin qız uşaqlarının erkən evləndirilməsinə mühit hazırladığı düşünülür. Erkən nikahlar uşaqların uşaqlığını əllərindən alır, öz yaşıdların mühitindən uzaqlaşmalarına, təhsil həyatlarını yarımçıq qoymalarına və tam formalaşmamış olan sosial şəxsiyyətlərində problem yaşamalarına səbəb olur. Uşaqlara ailə, ev, uşaq baxımı kimi məsuliyyətlər verilməkdə olub bu uşaqlar daxil olduqları ailələrdə bir növ kölə olaraq istifadə edilə bilməkdədirlər. Evləndirilən uşaqlar evdə istismara, hər cür şiddətə və iqtisadi asılılığa, yoxsulluğa açıq hala gəlir. Erkən nikahlar, cəmiyyətin inkişafındakı ən böyük hədəflərdən olan yoxsulluğun azaldılması, təhsilin geniş yayılması, yəni daha çox insanın təhsildən yararlanması, həmçinin gender bərabərliyinin təmin edilməsi, uşaqların həyatının qorunması və sağlamlığının yaxşılaşdırılması baxımından bir maneə kimi qarşımıza çıxır. Erkən və məcburi evliliyin mənfi nəticələri ilk növbədə fərdlərdə, daha sonra cəmiyyətdə meydana çıxır. Bu nəticələr sağlamlıqdan təhsilə, sosial həyatdan intihara qədər bir çox sahədə baş verir. Beləliklə, əvvəl fərdi nəticələr olaraq ortaya çıxan inkişaf zamanla sosial xüsusiyyətə bürünərək, təhlil edilməsi çətin və kompleks problemlər olması ilə nəticələnir.

Ədəbiyyat

1. Məmmədov R.T. Erkən evlilik probleminin araşdırılması və ondan çıxış yolları. Bakı: “Servis AZ” MMC - nin mətbəəsi, 2018 - 159 səh.
2. Aydemir E. Evlilik mi evcilik mi? Erken ve zorla evlilikler, çocuk gelinler. Ankara: Usak Yayınları, 2011 – 53 sayfa
3. Burcu E, Yıldırım F, Sırma Ç.S, Sanıyaman S. Çiçeklerin kaderi: Türkiyede kadınların erken evliliği üzerine nitel bir araştırma. Ankara: Bilig, №73, 2015, s. 63 – 98
4. Malatyalı M.K. Türkiyede çocuk gelin sorunu. Ankara Üniversitesi: Nesne Psikoloji Dergisi. №2 – 3, 2014, s. 27 – 38
5. Yüksel H, Yüksel M. Çocuk ihmali ve istismarı bağlamında Türkiyede çocuk gelinler gerçeği. Çankırı Karatekin Üniversitesi: Sosyal Bilimler Enstitüsü Dergisi. №5 – 2, 2014, s. 1 - 24
6. Dagne H.G. Early marriage in northern Ethiopia. Reprod Health Matters, №2, 1994, p. 35 - 38
7. Gök M. Child marriages in Turkey with different aspects. International Journal of Human Sciences, №13 – 1, 2016, p. 2222 - 2231
8. Güneş M, Selçuk H, Demir S, İbiloğlu A.O, Bulut M, Kaya M.C, Yılmaz A, Atli A, Sır A. Marital harmony and childhood psychological trauma in child marriage. Journal of Mood Disorders, №6, 2016, p. 63 – 70
9. Kidman R. Child marriage and intimate partner violence: a comparative study of 34 countries. International Journal of Epidemiology, №2 – 46, 2016, p. 662 – 675
10. Le Strat Y, Dubertret C, Le Foll B. Child marriage in the United States and its association with mental health in women. Pediatrics, №128 – 3, 2011, p.524 - 538

Rəyçi: dos. E.Bayramzadə

Göndərilib: 18.03.2021 Qəbul edilib: 23.03.2021